*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 182-187* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.182*

# Kazuo İşiquronun "Məni heç vaxt tərk etmə" romanında yaddaş və hermenevtik şərh

**Mətanət Məmmədova**
Bakı Avrasiya Universiteti, magistr
E-mail: metanetmemmedova2023@gmail.com

**Annotasiya.** Məqalədə yaddaş anlayışını müxtəlif aspektlərdən yanaşaraq, onun xüsusi məsələlərindən bəhs olunmuşdur. Yaddaş nədir? Yaddaşa hansı aspektdən yanaşılmışdır? – suallarının cavabı araşdırılmışdır. Qeyd edilmişdir ki, yaddaş məlumatların əldə edilməsi, saxlanılması və istifadəsi kimi bilinən psixoloji bir prosesdir. Yaddaş prosesi üçhissəli əməliyyatlar sistemidir: Kodlama, saxlanılma və axtarış bölmələri. Yaddaş məlumatı yadda saxlamaqla yanaşı, onu bərpa da edir. Yaddaş qüsursuzdur və hər kəsdə eyni deyil. Məqalədə yaddaş anlayışına süni və təbii olaraq iki aspektdən yanaşılır. Süni yaddaş texnologiyanın, kompüterlərin, mexanikaların, bir sözlə insan əli vasitəsilə yaradılan vasitələri əhatə edir. Təbii yaddaş isə canlılara aid psixoloji bir hadisədir. Məqalədə təbii yaddaş və süni yaddaş müqayisə olunur. Kazuo İşiquronun "Məni heç vaxt tərk etmə" romanı əsasında yaddaş anlayışı geniş şəkildə şərh olunur. Romanın mətni hermenevtik təhlilə cəlb edilir, yazıçının təbii və süni yaddaşa münasibəti və bu ikiliyə dair ifadə mexanizmi tədqiqat müstəvisinə çıxarılır.
**Açar sözlər:** yaddaş, hermenevtika, kodlaşdırma, gücləndirmə, yadda saxlama, təbii və süni yaddaş, texnologiya, xatirələr

**Məqalə tarixçəsi:** göndərilib – 27.02.2024; qəbul edilib – 07.03.2024

# The memory in Kazuo Ishiguro's novel "Never Let Me Go" and hermeneutic interpretation

**Matanat Mammadova**
Baku Eurasian University, Master
E-mail: metanetmemmedova2023@gmail.com

**Abstract.** In the article, the concept of memory is discussed from different aspects and special issues are discussed. What is memory? From which perspective is memory approached? Answers to the questions were investigated. It was noted that memory is a psychological process known as the acquisition, storage and utilization of information. The memory process is a 3-part processing system: Encoding, storage and retrieval units. Memory not only stores information, but also retrieves it. Memory is perfect and not the same for everyone. The article approaches the concept of memory from two perspectives: artificial and natural. Artificial memory includes tools created by technology, computers, mechanics, in short, by human hands. Natural memory is a psychological phenomenon of living beings. The article compares natural memory with artificial memory. The concept of memory is widely interpreted in the film based on Kazuo Ishiguro's novel "Never Let Me Go". By subjecting the text of the novel to interpretative analysis, the author's attitude towards natural and artificial memory and the mechanism of expression of this duality are brought to the level of research.

**Keywords:** memory, hermeneutics, encoding, consolidation, memorisation, natural and artificial memory, technology, memories

**Article history:** received – 27.02.2024; accepted − 07.03.2024

### Giriş / *Introduction*

Bu gün süni intellekt texnologiyalarının vüsətli inkişafı ilə bağlı bəşəriyyəti nə cür gələcək gözlədiyi, bəzən utopik, bəzən də distopik ssenarilərin mövzusu olur. Texnologiyanın təsiri bütün sahələrdə özünü göstərdiyi kimi ədəbiyyat sahəsində də bu məsələ ilə bağlı kifayət qədər mənbə tapmaq mümkündür. Yaradılmış texnologiyalardan biri də süni intellektdir (AI). Lakin süni intellektin də bir potensialı vardır, "Gələcəkdə proyeksiya yaratmazdan əvvəl edilməli olan şey süni intellektin zehni potensialını nəzərdən keçirməkdir. Bəşəriyyətin gələcəyini formalaşdıracağı proqnozlaşdırılan bu texnoloji tərəqqinin diapazonunu müəyyən edən təkcə maşınların düşünmə qabiliyyəti deyil. Şüur, təsir, iradə, dəyər və inanc kimi funksionallıqdan kənara çıxan məsələlərdə süni sistemlərin potensialı onların həm fiziki, həm də sosial nizamda vəzifə və statusunu birbaşa müəyyən edən amillər olacaqdır. Bu amillər arasında ən mühümü insan şüurunun fərqli elementlərindən biri hesab etdiyimiz şüur və yaddaş anlayışıdır" [6].

Yaddaş multidisiplinar anlayışdır. Fəlsəfi, kulturoloji, sosioloji, psixoloji və s. aspektlərdən təhlilə cavab verə bilir. Yaddaşın hermenevtik istiqamətdə təhlili də istər-istəməz hermenevtikanın əhatə etdiyi bütün məqamlara toxunmağı tələb edir..

### Əsas hissə / *Main part*

Öncəkilə hermenevtika nədir? Nədən bəhs edir? Hermenevtika termini ilk dəfə Qədim Yunanıstanda istifadə edilmişdir. Buna uyğun olaraq, Qədim Yunanıstanda tanrıların sözlərini və mesajlarını insanlara tanrıların elçisi "Hermes" çatdırırdı və Hermes tərəfindən çatdırılan bu sözlərlə tanrılar, insan həyatı ilə bağlı bəzi "şifahi dillərdə" insanların görə bilmədiyi şeyləri çatdırırdılar. Hermenevtika termininin teoloji mənası orta əsrlərdə qorunub saxlanılmış və bu termin xristian teologiyasının müqəddəs kitabdakı mənəvi həqiqəti dərk etmək və şərh etməklə məşğul olan hissəsi üçün istifadə edilmişdir [5, s.828]. XIX əsrdə mətnin mənasının predmeti, hüdudları ilə məhdudlaşdırılmayan "sərbəst" hermenevtikanın inkişafı başlayır. Hermenevtikanın romantik konsepsiyasının məqsədi mətnin obyektiv (sözlərin qrammatik mənaları və tarixən şərtlənmiş variantları) və subyektiv (müəlliflərin niyyəti) əsaslarına görə mənanı müəyyən etmək olan şərh məharəti nəzəriyyəsidir. Hermenevtika mətnlərin şərhi, təsviri sənəti və nəzəriyyəsidir. Bu cərəyan fəlsəfi təhlilin başlıca istiqamətlərini və məqsədini mətnlərin şərhində görür. Belə ki, bizim dünyanı duymağımız və dünyanı anlamağımız mətnlər olan dil interpretasiyasında cəmləşir. Hermenevtikada "**hermenevtik dairə**" deyilən bir anlayış vardır. Hermenevtik dairənin əsas prinsipi bundan ibarətdir ki, tamın öyrənilməsi, başa düşülməsi hissələrin başa düşülməsindən təşkil olunur, hissələrin başa düşülməsi üçün isə tamın başa düşülməsi zəruridir. Bu baxımdan mətnin başa düşülməsi dairə boyu tamdan hissəyə, hissədən tama doğru gedən hərəkətdir. Buradan belə bir nəticə çıxararaq, yaddaşın nə olduğunu anlamaq üçün öncə onu mənalandırıb nə demək olduğunu anlamağa çalışmalıyıq. Daha sonra onun parçalarını anlama predmetinə çeviririk: süni və təbii yaddaş.

Deməli yaddaş qavramının nə olduğunu anlamaq üçün onu hissələrə bölüb hissələri ayrılıqda dərk etməliyik. Hissələri anlamaq üçün isə tamı başa düşməliyik. Əvvəlcə yaddaşı tam şəkildə anlamağa çalışaq: "Yaddaş məlumatların əldə edilməsi, saxlanılması və istifadəsi kimi bilinən psixoloji bir prosesdir. Yaddaş prosesini 3 hissəyə bölə bilərik: Kodlama, saxlanılma və axtarış bölmələri. Yaddaş məlumatı yadda saxlamaqla yanaşı onu bərpa da edir. Lakin bildiyimiz kimi,

yaddaş qüsursuz və hər kəsdə eyni deyil. Bəzən biz nəyi, isə xatırladıqda onu səhv xatırlaya bilirik. Və ya yəqinki hər birimizin ətrafında bu adamın çox güclü yaddaşı var dediyimiz şəxslər mövcuddur" [4]. Yaddaşdan istifadə etmək üçün ilk olaraq onu koddan çıxarmaq, yaxud da hansı koddan istifadə edəcəyimizi müəyyənləşdirmək lazımdır. Bunun üçün bütün fikrimizi ya xatırlamaq istədiyimiz məlumata və ya xatirəyə yönəldirik. Həmçinin həmin xatirənin baş verdiyi məkanda olduqda da biz həmin xatirələri koddan çıxarda bilirik. Eyni zamanda qoxu da buna misaldır.

Yaddaşın formalaşması üçün ümumiyyətlə üç əsas addım var. "Kodlaşdırma, gücləndirmə, yadda saxlama" [5]. Kodlaşdırma beyindəki sinir fəaliyyətləri vasitəsilə məlumatın işlənməsi və yaddaşda qeyd edilməsi prosesidir. Kodlaşdırma diqqəti cəmləmək, məlumatı mənalı şəkildə emal etmək və əlaqə yaratmaq kimi amilləri əhatə edir. Məlumatın diqqətlə kodlaşdırılması sonradan yadda saxlamağı asanlaşdırır. İkincisi daha qalıcı izlər yaratmaq üçün yaddaşda kodlanmış məlumatın gücləndirilməsinə aiddir. Gücləndirmə məlumatı təkrarlamaq, onu dərindən emal etmək və əlaqələr yaratmaqla baş verə bilər. Təkrar, məlumatı təkrar-təkrar nəzərdən keçirmək və ya təkrarlamaqdır, dərindən işləmə isə məlumatı mənalı şəkildə anlamlandırmaq və əlaqələndirməkdir.

Əlaqələrin qurulması həm də yeni məlumatı əvvəllər öyrənilmiş məlumatlarla əlaqələndirərək yaddaşın formalaşmasını gücləndirir. Yadda saxlama yaddaşdan kodlaşdırılmış və gücləndirilmiş məlumatın xatırlanması prosesidir və məlumatın müvafiq qaydada yadda saxlanması və geri qaytarılması ilə baş verir. Yadda saxlama prosesi məlumatın saxlanma üsulu, yadda saxlama strategiyaları və yadda saxlama mühiti kimi amillərdən asılı olaraq təsirlənə bilər. Bu üç mərhələ yaddaşın formalaşmasında mühüm rol oynayır.

Yaddaşın ümumi dərki onun variantlarının – süni və təbii yaddan ayrı-ayrılıqda dərkini tələb edir: "Texnoloji innovasiyaların sürətlə inkişaf etdiyi bir mühitdə maraqlı, lakin etik cəhətdən çətinliyi ilə tədqiqatçıların, alimlərin və futuroloqların diqqətini cəlb edən bir konsepsiya var: süni yaddaş. Rəqəmsal manipulyasiya, gücləndirmə və hətta xatirələr yaratmaq ideyası maraq və müzakirə mövzusuna çevrilib" [5]. Süni yaddaş, yaxud "artificial memory" iradə xaricində baş verən, məcburi yaddaş hadisəsidir. "Süni yaddaş" termini tez-tez süni intellekt və kompüter elmi kontekstində istifadə olunur. Bu termin kompüter sistemlərinin məlumatlarının saxlanması və giriş imkanlarını təsvir edir. Bir növ insanın şüurlu yaddaşına bənzər şəkildə fəaliyyət göstərən, lakin kompüterlər tərəfindən istifadə edilən yaddaş sisteminə aiddir. Süni yaddaş kompüter proqramlarında və süni intellekt sistemlərində istifadə olunan bir anlayışdır. Bu, ümumiyyətlə, proqramlaşdırma və ya öyrənmə prosesləri zamanı kompüterin məlumatı müvəqqəti və ya daimi saxlamaq qabiliyyətinə aiddir. Məsələn, süni intellekt modeli keçmiş təcrübələrdən öyrənilən məlumatları saxlamaq üçün bir növ süni yaddaşdan istifadə edə bilər. Süni yaddaş kompüter elmində, xüsusən də maşın öyrənməsi və süni intellekt sahələrində tez-tez istifadə olunur. Bu termin kompüter proqramının əvvəlki təcrübədən öyrənmək və ya məlumatları sonradan emal etmək üçün yadda saxlamaq qabiliyyətinə aiddir. Məsələn bu yaddaşa paltaryuyan maşını nümunə göstərə bilərik. Paltaryuyan maşın elektrik şəbəkəsinə, kanalizasiya və su təchizatı sisteminə daimi qoşulu olduğu üçün onu işə salmaq heç bir əlavə əmək tələb etmir. Yalnız yuyulacaq paltarları içinə yığıb, yuyucu vasitələr əlavə etməklə uyğun gələn yuma proqramını seçmək lazımdır. O, bu proqram vasitəsilə işə düşür, həmin proqram isə süni yaddaşdır. O, proqramlaşdırılan zaman yaddaşına hansı rejimdə hansı paltar yuyulmalıdır və s. kimi məsələləri yaddaşında saxlayır və işə düşən zaman bu qaydalara əməl edir.

Süni yaddaş yaradıla və ya dəyişdirilə və fərdin şüuruna implantasiya edilə bilən rəqəmsal xatirələrdir. Bu yaddaş insan beyninin yaddaş funksiyalarını təqlid edən və ya dəstəkləyən kompüter əsaslı sistemlər və texnologiyalar toplusudur. Bu konsepsiya xüsusilə süni intellekt (AI) və koqnitiv elmlər sahələrində mühüm rol oynayır [1]. Bəşəriyyətin əsas dəyərlərinə xələl gətirmədən süni yaddaşın faydalarından istifadə edilməsini təmin etməklə yenilik və məsuliyyət arasında tarazlıq yaratmaq bugün vacib istiqamətdir. Biz bu fövqəladə inqilabın astanasında dayanarkən, o bizə xatırladır ki, tərəqqi yolunda biz həmişə insanlığımızı qoruyub saxlamağa çalışmalıyıq. Lakin

K.İşiquronun “Məni heç vaxt tərk etmə” əsərininin analizi hər şeyin necə sıradan çıxdığını, artıq insanlığın sonunun gəldiyini fərqli rakursdan ortaya qoyur. Hər şeyi yaradan insanın öz yaratdıqlarını məhv etməyə məcbur və məhkum olması romanın məğzini təşkil edir.

Təbii yaddaş nədir? “İnsanın duyub və qavradıqlarının, psixikasında baş verənlərin hamısı izsiz ötüşmür, müəyyən mənada orada hifz olunur. Bəziləri isə ömürlük qalır. Keçmişdə baş verənlərin psixikada “izi”, işarələri, kodu, sürəti qalır. Bizlərdən hər birimiz təsdiq edə bilərik ki, təkrarən duyduğumuz və qavradıqlarımızı tanıyır və onu əvvəllərdə məhz o şəkildə yaşadığımızı söyləyərik. Psixikanın mühüm universal xüsusiyyətlərindən biri də informasiyanın fasiləsiz olaraq toplanması qabiliyyətidir. Bu proses psixi fəaliyyətin bütün dövr və sahələrini əhatə etməklə bir çox hallarda avtomatlaşır, hətta az qala qeyri-şüuri mahiyyət kəsb edir” [7, s.280].

Təbii yaddaş, insanların çox vaxt şüurlu formada, səy göstərmədən yadda saxlamaq qabiliyyətidir. Bu o deməkdir ki, məlumatı öyrənmək və yadda saxlamaq prosesi gərginləşmədən baş verir. Təbii yaddaş bəzən avtomatik yaddaş və ya prosedur yaddaş da adlanır. Məsələn, kimsə küçə ilə tanış yerə gedərkən və ya avtomatik olaraq bir şey edərkən (məsələn, velosiped sürərkən) məlumatı xatırladıqda təbii yaddaş işə düşür. Yaxud hər gün alqoritmə uymaq da təbii yaddaşın bir parçası hesab olunur. Belə biliklər insanın zamanla təcrübə və ya vərdiş yolu ilə əldə etdiyi biliklərdir və adətən hər hansısa bir səy tələb etmir. Süni yaddaş ilə təbii yaddaşın fərqi nədədir? Süni yaddaşa məcburi yaddaş deyə bilərik, amma təbii yaddaş belə deyil. Təbii yaddaş insanların bioloji olaraq malik olduğu qabiliyyətdir; Bu, onların beyinlərinin və neyron şəbəkələrinin fəaliyyətinə əsaslanır. Süni yaddaş kompüterlər və ya digər süni sistemlər tərəfindən yaradılan və saxlanılan məlumatdır. Süni yaddaş milyardlarla, hətta trilyonlarla hissəcikləri və ya məlumatları dərhal emal edə bilər. Təbii yaddaş isə insan beyninin məhdud tutumu və emal sürətinə malikdir. Süni yaddaş proqramlaşdırıla bilən və dəyişdirilə bilən xüsusiyyətlərə malikdir. Alqoritm və ya proqram təminatı yeniləndikdə və ya dəyişdirildikdə, süni yaddaşdakı məlumat və proseslər dəyişə bilər. Təbii yaddaş ümumiyyətlə daha çevikdir; Bir dəfə öyrənilən məlumatın dəyişdirilməsi və ya yenilənməsi daha çətin ola bilər. Məsələn, insan hansısa xatirəni xatırlayanda onun üçün bu yaddaşın emosional konteksti önəmli ola bilər. Süni yaddaş adətən bu emosional konteksti əhatə etmir və yalnız məlumat və informasiyaları saxlayır. İnsanlar müxtəlif duyğu girişləri ilə qarşılıqlı əlaqədə yeni məlumatları öyrənirlər. Süni yaddaş isə adətən xüsusi proqramlaşdırma və ya verilənlər vasitəsilə öyrənir və inkişaf edir.

Kazuo İşiquronun “Məni heç vaxt tərk etmə” romanında yaddaş məsələsi mühüm yer tutur. Əsərdə yaddaş anlayışına bir çox hissədə rast gəlirik. Hadisələr əsərin əsas obrazı olan və hadisələri nəql edən Ketinin dili ilə oxuculara çatdırılır. Keti öz keçmiş xatirələrini düşünür, xatırlayır və onları bizə nəql edir. Biz onun vasitəsilə keçmişə, Ketinin və onunla eyni taleyi paylaşan dostlarının həyatları ilə tanış oluruq.

Özü bir klon olan Keti H. donor klonlarına baxıcılığa başlamışdı. Və on bir il idi ki, bu işlə məşğul idi. Keti Rut və Tommini yenidən görmək istəyirdi. Onlar onun keçmişinin bir parçası idilər, bir yerdə böyümüşdülər. Və o, həmişə yaxşı xatirələri olmasa da, keçmişini, Heylsemi xatırlamaq istəyirdi. Əgər xoşbəxt sözünü donorlar haqqında işlətmək mümkün olsaydı, bu, “Heylsem” də qalan donorlar üçün olardı. Ən azından Keti belə düşünürdü. Heylsem ciddi qaydalar və ciddi nəzarətlər dünyası idi. O, həm də sirlər yeri idi. Bir gün Keti baxıcı, dostları Rut və Tommi isə donor olan zaman onların yolları kəsişir. Bu görüşlə Keti tez-tez keçmişə qayıdır, bəzi şeyləri yenidən yaşayır və bir çox şeyi sorğulamağa başlayırdı [6]. Zamanla çox şey dəyişirdi. Heylsem şagirdləri nə olduqlarını və nə üçün yetişdirildiklərini bilirdilər... Hansı daha yaxşı idi? Bilmək yoxsa bilməmək? Bilməmək hər şeyi asanlaşdırmır? Yoxsa uşaqlıqdan bu ağır biliklə böyümək gələcək hadisələrin qarşısını ala bilməmək? Şəxsiyyətimizin və bədənimizin əsas şəxs üçün talan edilməsini qəbul edə bilərikmi? Özünün qayğısına qalmalı olan, ancaq öz xatirinə olmayan birini düşünün. Başqası üçün yaşayan...

Heylsem şagirdləri tək məqsəd üçün yaradılmışdır: donorluq. Onlar yetkinlik yaşına çatan zaman öncə baxıcı, hazır olduqda isə artıq donorluq vəzifəsini yerinə yetirirdilər [6]. Bu şagirdlərin başqa variantları yox idi. Onlar bunun üçün yaradılmışdı. Ancaq ən acınacaqlı da bu idi ki, insanlar elə onların özü üçün yaradılmış klonlardan qorxurdular. "İnsanlar sizin mövcudluğunuzdan nə qədər narahat olsalar da, öz uşaqlarının, yoldaşlarının, valideynlərinin, dostlarının xərçəngdən, motoneyronlarının çatışmazlığından və ya ürək xəstəliyindən ölməyəcəklərinə görə çox rahatlaşmışdılar. Uzun müddət kölgədə qaldığınıza görə xeyli rahatlaşmışdılar. Onların gözündə siz əskik varlıqlar idiniz, odurki əhəmiyyətiniz də yox idi. Biz dairəni kvadrat etməyə çalışırdıq, onların fikirlərini dəyişməyə çalışırdıq. Amma həmişə sizi insan kimi görməyə mane olan baryer olacaq" [6, s.317]. Göründüyü kimi öz yaşama səbəblərini görmək istəməyən, öz yaratdıqlarını məhv etməyə çalışan "ruhu olan, düşünən, hiss edən və təbii yaddaşa malik olan" insan varlıqları, ruhu olmadığı, hiss etmə, sevmə bacarıqları olmayan kimi düşünülən və ən əsası süni yaddaşları olan klonlar ilə qarşı-qarşıya idi. İnsanların qələbə çalması, insanlığın məhvi idi. Ancaq heç kim fərqində deyildi...

Süni və təbii yaddaş arasındakı əlaqə və fərqlər romanın əsas mövzusunu təşkil edən mühüm elementlərdən biridir. Romanda təbii yaddaşı vurğulayan məqamlar göstərir ki, klonlar orqan donoru kimi yetişdirilsələr də, onlar tamamilə normal insanlar kimi emosional və şüurlu formada yaşaya bilirlər. Bu, təbii olaraq insan təcrübəsinə və insan duyğularına sahib olduqlarını vurğulayır. Baş qəhrəmanlar Keti, Tommi və Rutun münasibətləri, duyğuları və xatirələri oxucuya klonların təbii yaddaşına və insan təcrübəsinə dərindən nəzər salmaq imkanı verir. Məsələn Ketinin tez-tez keçmişi, keçmişdə baş verən hadisələri, xatirələrini nəql etməsi, çox zaman isə "dəqiq xatırlamıram", yaxud "belə xatırlayıram ki" deyə vurğulaması onun təbii yaddaşının məhsulu idi. O, həm xatırlaya bilirdi, həm də unuda bilirdi. Bu əslində tamamilə insanlara aid bir xüsusiyyət idi. Bu xüsusiyyət isə onu insan kimi qəbul etməyə imkan verirdi. Süni yaddaş romanda klonların yetişdirilməsi prosesi, onlara şüurlu şəkildə müəyyən bir hekayə danışılması və məlumatlar verilməsi ilə özünü bəlli edir. Şagirdlər tərbiyəçilər vasitəsilə böyüdülür və heç bir tərbiyəçi onlara kim olduqlarını, nəyə görə var olduqlarını demir. Madam Lusi isə müəyyən bir yaş həddinə çatdıqda şagirdlərə bəzi reallıqları deyir və onlardan xəyal qurmamaqlarını, özlərini insan kimi aparmağın lazım olmadığını və ən sonunda onlardan tələb edilən kimi yaşayıb, öləcəklərini bildirir. Xəyal qurmamaq və başqalarının yönləndirdiyi kimi yaşamaq isə robot kimi yaşamaqdan fərqsiz deyildi. Süni yaddaşları onların keçmişini, şəxsiyyətini və taleyini şübhə altına almaqdan çəkindirirdi. Onlar faktları öyrənməkdə və öz həqiqi şəxsiyyətlərini aşkar etməkdə məhdudlaşdırılmışdılar. Bu, onların öz taleyini və cəmiyyətdəki yerini dərk etmələrinə təsir edirdi. Romanda diqqətçəkən məqamlardan biri də şüuraltı yaddaş və xatirələrlə bağlıdır. Bu prosesdə şüuraltı xatirələr və ipucları mühüm rol oynayır. Əsas personajlar uşaqlıq xatirələri, Heylşem adlı internat məktəbi və onların tərbiyəsi ilə bağlı xatırladıqları təfərrüatları bölüşürlər. Bu xatirələr klonların süni və təbii yaddaşı arasındakı sərhədi dumanlaşdırırdı. Zaman keçdikcə isə onlar özlərini tapmağa, varlıqlarını araşdırmağa çalışırlar. İnsanların yönləndirdiyi şəkildə yaşayıb, özün ola bilməmək – bu çağdaş dünyanın sosial-psixoloji gərginliyidir.

## Nəticə / *Conclusion*

Beləliklə, hermenevtika bizə əsərdəki yaddaş məsələsini anlamaqda yaxından kömək edir. Əsərdəki yaddaş konseptini hissələrə bölərək bütövü anlamaq yolu bizi hermenevtik dairəyə gətirib çıxardı. Hermenevtika hər yerdədir, anlama bütün elm sahələrində mövcuddur. Bu sahələrdən biri də "Ədəbiyyat"dır. Yaddaş məsləsinin hermenevtik kontekstə şərhini "Məni heç vaxt tərk etmə" əsəri ilə verməyə çalışdıq. Yaddaş məsələsi kifayət qədər geniş sahədir və onun araşdırılması, təhlili dəqiq istinadlara əsaslanmalıdır. "Məni heç vaxt tərk etmə" əsəri vasitəsilə yaddaşın müxtəlif formaları ilə tanış ola bilirik. Yazar-yaratdığı distopik dünya ilə yaddaş anlayışına müxtəlif aspektlərdən yanaşır. Biz əsəri oxuyub, obrazlarla tanış olduqca yaddaş anlayışına hermenevtik şərh

verə bilirik. Əgər burada yazarın nə demək istədiyini, təsvir etdiyi dünyanı daha dərindən dərk edib anlasaq, obrazların daxili, mənəvi dünyalarını görüb hiss edə bilsək, o zaman biz əsəri artıq anlamış oluruq. Obrazların daxili dünyası o qədər geniş və fərqlidir ki əsər bizdə onlara qarşı müxtəlif perspektivlərdən yanaşmaq lazım olduğunu göstərir. Ümumiyyətlə əsəri tam anlamadan və obrazların daxili dünyasını deşifrə etmədən hermenevtik təhlili apara bilməyimiz qeyri-mümkün olardı. Bu, bizi hermenevtikaya gətirib çıxarır. Hermenevtika bizə oxumağı, düşünməyi, şərh və təhlil etmə kimi bir çox xüsusiyyətləri öyrədir. Çünki, "hermenevtika anlamaq və şərh etmək nəzəriyyəsidir".

**Ədəbiyyat / *References***


1. Bengio, Y., Courville, A., & Vincent, P. (2013). Representation Learning: A Review and New Perspectives. IEEE Transactions on Pattern Analysis and Machine Intelligence, 1798-1828. – 30 s.
2. Cevizci, A. (2005). "Hermeneutik", Felsefe Sözlüğü. – İstanbul: Paradigma. 1911 s.
3. Doğan, M. "Yapay zeka ve bilinç". TRAİ. 25 Haziran 2021.
4. Hacıyeva, X. "Yaddaş nədir? Xatirələri necə yadda saxlayırıq?". Linkedin. 29.07.2022.
5. Himmetoğlu, A. "Hafıza (Bellek) Nedir ve Nasıl Oluşur? Hafıza Türleri ve Beyindeki Hafıza Bölgeleri". Hiwell. 31.05.2023
6. İşiquro, K. Məni heç vaxt tərk etmə. – Bakı: TEAS Press Nəşriyyat evi, 2017. – 348 s.
7. Seyidov, S.İ., Həmzəyev, M.Ə. "Psxologiya". – Bakı, 2007. – 626 s.


## Памят и герменевтические условности условности в романе Казуо Ишигуро «Никогда не покидай меня»


**Матанат Мамедова**
Бакинский Евразийский Университет, Магистр
E-mail: metanetmemmedova2023@gmail.com



**Резюме.** В статье понятие памяти рассматривается с разных сторон и обсуждаются специальные вопросы. Что такое память? С какой точки зрения рассматривается память? Ответы на вопросы были исследованы. Было отмечено, что память – это психологический процесс, известный как приобретение, хранение и использование информации. Процесс памяти представляет собой трехкомпонентную систему обработки: блоки кодирования, хранения и извлечения. Память не только хранит информацию, но и извлекает ее. Память идеальна и не одинакова для всех. В статье понятие памяти рассматривается с двух позиций: искусственной и естественной. Искусственная память включает в себя инструменты, созданные техникой, компьютерами, механикой, словом, руками человека. Естественная память – это психологический феномен живых существ. В статье сравнивается естественная память с искусственной памятью. Понятие памяти широко трактуется в фильме по роману Кадзуо Исигуро «Никогда не отпускай меня». Подвергая текст романа интерпретативному анализу, отношение автора к естественной и искусственной памяти и механизм выражения этой двойственности выводятся на уровень исследования.



**Ключевые слова:** память, герменевтика, кодирование, консолидация, запоминание, естественная и искусственная память, технология, воспоминания